# MUXAX XALÇALARI-KEÇMİŞİMİZDƏN BU GÜNƏ

(tarixi-etnoqrafik təhlil)

Professor Vidadi Muradov,
tarix üzrə fəlsəfə doktoru Arzu Məmmədova

**Açar sözlər:** *Zaqatala, Muxax, Konya, "Halı", "Azər-İlmə", Car-Tala İttifaqı, "Bis" xalçası, "Yatak" xalçası.*

*Azərbaycan Respublikasının Zaqatala rayonunun ərazisində yerləşən Muxax kəndi şimal-qərb bölgəmizin siyasi-mədəni tarixində özünə məxsus yerə sahibdir. Əhalisi türk, avar və saxurlardan ibarət olan bu kəndin etnik rəngarəngliyi onun spesifik kalorita malik mədəniyyətinin formalaşmasına öz ciddi təsirini göstərmişdir.*

*Burada əhali tarixən əkinçiliklə, maldarlıqla, xüsusilə, qoyunçuluq təsərrüfatı ilə məşğul olmuşlar və bu gun də həmin ənənələr davam etdirilir. Kənddə məhz bu ənənəvi təsərrüfat sahələri ilə bağlı olan sənət növləri də inkişaf etmişdir. Bunların arasında xalçaçılığı xüsusi qeyd etmək lazımdır. Muxax, yaşlılar tərəfindən "Bis" adlandırılan xüsusi xalça növünün toxunduğu yerdir. Muxax xalçaları dördbucaq formalı, qalın xovlu, 7 (bəzən də 6) ana rəngin tətbiq olunduğu , arişləri adətən qara qoyun yunundan, keçi qəzilindən olan unikal sənət əsərləridir. Bu xalçalar Azərbaycanın digər xalça qrupları ilə oxşarlıqlara malikdir. Məsələn, Muxax xalçaları naxışların seyrəkliyi və sərbəstliyi, kompozisiya sadəliyi, rəngləri ilə Qazax-Borçalı qrupu xalçalarını xatırladır. Lakin xalçalar eyni zamanda da özəlliyini qoruyub saxlamaqdadır.*

*Muxax xalçalarının dünyaya tanıdılması istiqamətində ilk addımlar 1993-cü ildə ingiltərəli xalça mütəxəssisi, "Halı" jurnalının səyyar redaktoru Toni Hazledinen və "Azər-İlmə"nin xalçaçı - tədqiqatçıları tərəfindən atılmışdır. Bu gun də "Azər-İlmə" bu istiqamətdə elmi araşdırmaları davam etdirir.*



**MUXAX KƏNDİNİN YERLƏŞDİYİ BÖLGƏNİN TARİXİNDƏN**

Məqalənin adından göründüyü kimi, bu tədqiqatın əsas agırlığı Azərbaycanda mədəniyyətin və sənətkarlığın əsas sahələrindən olan xalçaçılıqla, lap dəqiq ifadə etsək, Muxax xalçaları ilə bağlıdır. Lakin məlumdur ki, xalçanın hər bir ilməsi, hər bir naxışı böyük bir tarixin nişanəsidir. Sözsüz ki, Muxax xalçalarının da öyrənilməsinə elə onların yarandığı mühitin tarixindən başlamaq lazımdır.

Muxax Zaqatala rayonunun böyük kəndlərindən biridir. Əhalisi türk, saxur və avarlardan ibarət olan bu kənd bölgənin tarixində özünəməxsus yerə sahibdir.

Kəndin adı Rusiya imperiyasının bölgənin işğalı dövrünə aid sənədlərdə tez-tez çəkilir. Çünki Muxax Rusiya imperiyasına qarşı şiddətli müqavimət göstərmiş və "sərhəd qoruyucusu" statusu daşımış Car-Balakən camaatlığının tərkib hissəsi, daha dogrusu, camaatlığın 6 boyük icmasından biri olmuşdur.

Muxax kəndinin yaranmasına dair məsələlərə keçməmişdən əvvəl bu regionun tarixinə qısaca nəzər salmaq istərdik.

Qeyd edək ki, kəndin yerləşdiyi şimal-qərb bölgəmiz bütün tarixi dövrlərdə öz strateji əhəmiyyətini qoruyub saxlamışdır. Elə bu səbəbdən də bir çox fatehlər buranı tutmaq uğrunda mübarizə aparmışlar.

Azərbaycan Respublikasının Muxax kəndinin də yerləşdiyi şimal-qərb bolgəsi e.ə. I minilliyin VII əsrində Şimali Qafqazdan keçərək Ön Asiyaya gedən skif-sak tayfalarının məskunlaşdığı ərazilərdən idi. Tərkibində Sak etnonimini saxlamış Sakasena, Sakan, Zaqatala (Sak –a-tala) və s. kimi toponimlər, eyni zamanda, burada Qanix çayı sahili boyunca tapilmiş skif kurqanlari həmin tarixin canlı yadigarıdır.

E.ə.IV əsrdə artıq bu bölgə, ərazisi Xəzər dənizindən Dəryal keçidinədək uzanan qədim Azərbaycan dövləti Albaniyanın tərkib hissəsi və alban tayfalarının sıx yaşadığı bir ərazi idi.

Erkən orta çağdan başlayaraq bu ərazilərə Dərbənd və Daryal keçidlərindən keçərək gələn hun türk tayfalarının axını başlayır. Erməni müəllifləri Yegişe, Favstos Buzand və Gevond bu yürüşlər barədə məlumat verirlər. Mənbələrə görə, 503-cü ildə Savir hunları Albaniyanın və İberiyanın varlı şəhərlərini, kəndlərini tutmuşdular[1]. Artıq VI əsrin ortalarında Albaniyanın bütün şimal hissəsi savirlər tərəfindən tutulmuşdu[2].

Aramsız davam edən bu miqrasiyalar bölgədə türk əhalinin daha sıx məskunlaşmasında mühüm rol oynayır.

Muxax kəndinin yerləşdiyi şimal-qərb bölgəmiz Albaniyadan sonra Şəki çarlığının bir parçası olmuşdur[3]. XII əsrin əvvəllərində Abxaz-Kartli çarı IV David buranı işğal etsə də, XII əsrdən bu torpaqlar Ali Moğoл xaqanlığının, daha sonra isə Hülakülər dövlətinin tərkibinə qatılmış, XV əsrdən Qaraqoyunlu və Ağqoyunlu, XVI əsrdən isə Səfəvi dövlətinin ərazisinin bir hissəsi olmuşdur. Muxax kəndinin daxil olduğu Car-Balakən camaatlığının yaranması prosesi də Səfəvi dövləti ilə birbaşa bağlıdır[4].

Belə ki, məlum olduğu kimi, Səfəvi sülaləsinin ilk nümayəndələri Şah I İsmayılın (1501-1524) və Şah I Təhmasibin (1524-1576) Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasəti Qafqaz, xüsusilə də Azərbaycanın zəngin ipəkçilik bölgələri olan Şəki və Şirvan, o cümlədən Xəzərsahili vilayətlər üzərində nəzarəti ələ keçirməyə çalışan Osmanlı dövləti ilə çətin mübarizə şəraitində həyata keçirilmişdi. Həmin vaxt Osmanlı dövləti feodal pərakəndəliyi yaşayan Gürcüstanın qərbində möhkəmlənmişdi. Onun Şərqə doğru genişlənməsinin qarşısını almağa çalışan

*









Səfəvi şahları isə Kartli, Kaxet və Samtsxe-Saatabaqonu özlərindən asılı vəziyyətə salaraq[5], həmin çarlıqların ərazisini yeni yaratdıqları Gürcüstan valiliyinin tərkibinə daxil etmişdilər. Erkən yaşlardan Səfəvi saray mühitində tərbiyə edilən gürcü şahzadələri islamın şiə məzhəbini qəbul etdikdən sonra ancaq vali statusunda ölkələrini idarə etmək hüququ alırdılar. Z. Bayramlının araşdırmasına görə, Səfəvi dövlətinin ərazisi 13 bəylərbəyliyə və 4 valiliyə bölünmüşdü ki, həmin valiliklər də dövlətə sədaqətlərinə görə sıralanmışdılar[6]. Gürcüstan valiliyinin adı üçüncü yerdə qeyd edilirdi. Bu isə onu göstərirdi ki, Səfəvi şahları ölkəni vali statusunda idarə edən və fürsət düşən kimi mərkəzi hakimiyyətə qarşı üsyan qaldıran gürcü çar nəslinin nümayəndələrinə etibar etmirdilər. Buna görə də Şah Təhmasib ənənəvi cəza üsullarından imtina edərək, dövlətin bu uc torpaqlarındakı müsəlman hakimliklərinin mövqelərinin gücləndirilməsinə xüsusı diqqət yetirir. Nəticədə, Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamış Şəki hakimliyinin yenidən bölgədə rolu güclənir. 1562-ci ildə isə Səfəvi hökmdarı Şah Təhmasib Şəkidən qərbdəki torpaqların Saxur hakimi Adıgörklü bəyin ixtiyarına verilməsi haqqında fərman verir[7]. Bu siyasət ən sonda Saxur hakimliyindən qərbdə (sonralar İlisu sultanlığına çevrilmişdir) Car-Balakən camaatlığının yaranması ilə başa çatır. Burda gedən siyasi proseslər bölgənin əhali tərkibinə də öz təsirini göstərir. Həmin hadisələrə qədər bu bölgədə türklər və ingiloylar yaşayırdılar.

1616-cı ildə Səfəvi-Osmanlı müharibəsinin növbəti mərhələsi (1616-1618) başa çatdıqdan sonra burada əhalinin say və etnik tərkibində ciddi dəyişikliklər baş verir. Həmin hadisələr mənbələrdə belə təsvir edilib. Səfəvi hökmdarı I Şah Abbas (1587-1629) imperiyasının hüdudlarına daxil olan Gürcüstan valiliyində Luarsab və Təhmuraz tərəfindən qalxan üsyanı yatırmaq üçün öz qoşunu ilə buraya hərbi yürüş edir. Yürüş ərəfəsində Şirvan bəylərbəyi Yusif xana, Saxur hakimi Əli Sultana və Dagıstan hakimlərinə Gürcüstan yürüşündə iştirak etmək əmri verilir[8]. 1616-cı ildə Zəyəm çayı sahilində baş verən döyüşdə Səfəvilər gürcülər üzərində qələbə qazanırlar, imperiyanın hüdudlarına daxil olan Kaxet ərazisi tutularaq dağıdılır və üsyançılar cəzalandırılır[9]. Bundan sonra Boyük Qafqaz dağlarının şimal ətəklərində yaşayan müsəlman əhalinin cənuba intensiv köçü başlayır.

Car-Balakən camaatlığının tarixinə dair rus hərbçiləri və tarixçiləri tərəfindən toplanmış materialların içərisində bizə gəlib çatmış rəvayətlərə görə, həmin dövrdə camaatlığın yarandığı əraziyə şimalda ilk köçüb gələn Nuhlu və Çömçəli nəsilləri (toxumları) Car dərəsini dövrələyən Qunduz dağda, "Qoloda" adlandırılan yaşayış məskəninin ərazisində məskunlaşırlar[10]. Tezliklə buraya, yəni Qoloda yaşayış məskəninə "Təbəli" adlandırılan və Tlebel icmasından çıxan üçüncü nəsil gəlir. Burada ən gec məskunlaşan toxumlar isə Dağ mahalından, yəni Samur çayı hövzəsindən çıxmış Ərəbli, Curmut, Boyaklı və Osoberal nəsilləri olur. Bu toxumlar gücləndikdən sonra dağətəyi ərazidə məskunlaşmağa başlayırlar. Nuhlu, Çömçəli və Təbəli nəsilləri Car dərəsində, Ərəbli, Curmut, Boyaklı və Osoberal nəsilləri isə Tala dərəsində məskunlaşırlar[11]. Buna görə də yeni yaranmış hərbi-siyasi qurum başlanğıcda "Car-Tala" adlandırılır.

Bu əraziyə nəzarət etməyə çalışan Kaxetlə Car-Tala icması arasında çox vaxt sonu hərbi əməliyyatlarla nəticələnən ciddi mübarizə gedirdi. Bu mübarizədə avar – saxur icmasının qələbəsini şərtləndirən mühüm səbəblərdən biri gürcü çarlarının təbəələrinə çevrilərək bütün hüquqlarını itirmiş ingiloyların, eləcə də muğalların[12] onlarla birləşməsi və ya ittifaqı olur. Onlar könüllü şəkildə kənd-kənd müsəlman, avar və saxurların tərəfinə keçirlər[13]. Car-Tala ittifaqına qəbul olunan muğal və ingiloy kəndlilərinin sayı artdıqca, onların nəzarət etdiyi ərazilər də genişlənir. 1695-ci ildə Qoloda kəndində gürcü hərbi dəstələri ilə bölgənin müsəlman əhalisi arasında baş verən həlledici döyüşdə müsəlmanların qələbəsi Car-Balakən camaatlığının yaranması prosesinin başa çatmasında həlledici olur[14]. Avarlar, muğallar, saxurlar və ingiloylar arasında gedən təşkilatlanma nəticəsində Car-Tala ittifaqı Car, Balakən, Katex, Cınıx, Muxax icmalarının da daxil olduğu Car-Balakən camaatlığına çevrilir.

Ərazisi şimalda "Cəbəl əl-Fəth" adlandırılan Qafqaz dağlarından canubda Qabırrı çayadək (İori), şərqdə "Qobu çay" adlandırılan Qapı çayla, qərbdə "Kurtumanlı" adlandırılan Qara Tubal çay və ya Kartuban çay (müasir Gürcüstan Respublikasının Laqodexi rayonunun ərazisindən axır) arasındakı əraziləri əhatə edən Car-Balakən camaatlığı

bərabərhüquqlu altı icmanın birliyi idi. Bu icmalar da öz növbəsində ayrıca avar, saxur, muğal və ingiloy kəndlərindən ibarət idi. Maraqlıdır ki, işlər də bu kənd icmaları arasında bölünmüşdü. Avarlar, saxurlar, həmçinin onlarla birgə yaşayan muğallar nəzarətləri altında olan əraziləri qoruyur, hərbi işlə, eyni zamanda da maldarlıqla məşğul olur, düzən ərazidə yaşayan ingiloylar və muğallar isə camaatlığı çörəklə təmin edir, yəni əkinçiliklə məşğul olurdular[15].

etməliyik ki, kənd təxminən XVII əsrin sonlarında meydana gəlmiş Car-Balakən camaatlığı ilə eyni vaxtda yaranmışdır[17].

XIX yüzillikdə kənd sakinləri öz kəndlərinin yaranması tarixi ilə bağlı belə məlumat vermişlər: "Kəndin əsası qədim vaxtlardan ləzgilər[18] və muğallar[19] tərəfindən qoyulmuşdur[20]". Bu məlumatda diqqəti çəkən daha bir məqam var. Kəndin yaranmasında "muğal" əhalinin qolu





## MUXAX KƏNDİNİN YARANMASI

Muxax kəndinin yerləşdiyi ərazinin tarixini izlədikdən sonra, kəndin yaranması ilə bağlı mənbələrdə keçən məlumatlara diqqət yetirək. Qeyd edək ki, əslində Muxax adında iki kənd mövcuddur: biri Böyük Qafqaz dağlarının şimalında yerləşir və Baş Muxax kimi tarixi mənbələrdə adı çəkilir. Hal-hazırda Rusiya Federasiyasının tərkibində olan ərazidə yerləşən Baş Muxax kəndinin adındakı "Baş" kəlməsi ikinci Muxax kəndi yaranandan sonra ortaya çıxmışdır və yeni yaranan Muxax kəndini ilk, əsas kənddən fərqləndirmək məqsədi daşımışdır.

Qeyd edək ki, hər iki Muxax kəndi Muxax icmasının tərkibində Car-Balakən camaatlığına daxil idi. Ümumilikdə isə 1826-1830-cu illərdə Muxax icmasına 5 kənd daxil olmuşdur[16]. Baş Muxax, əslində, Car-Balakən camaatlığı ləğv olunanadək onun tərkibində olmuş, sonra isə çarizmin apardığı inzibati-ərazi islahatları nəticəsində bölgə ilə əlaqələri tamamilə qırılmışdır.

Bizim tədqiqat obyektimiz olan Muxax kəndinin yaranması ilə bağlı mənbələrdə, daha dəqiq desək, 1869-1874-cü illərdə fəaliyyət göstərmiş Zaqatala Silki-Torpaq Komissiyasının sənədlərində verilən məlumatlara əsasən, qeyd

qeyd olunur. Deməli, hələ şimaldan köçlər başlayana qədər burada yaşayan türk əhali kəndin əsasını qoyan iki əsas qrupdan biri idi.

Camaatlıqdakı sosial-iqtisadi münasibətləri nəzərə alsaq görərik ki, şimaldan miqrasiya edən avar-saxur əhali ilə onların gəlişinə qədər burada yaşayan ingiloy, muğal arasındakı münasibətlər Keşkəl institutu (Keşkəl institutuna xüsusi diqqət yetirmək lazımdır. Keşkəl "Köç gəl" və ya "Keç gəl" demək idi. Yuxarıda da qeyd etdiyimiz kimi, bölgənin türk, ingiloy əhalisi Qafqaz dağlarının şimalında yaşayan avar-saxurları onları gürcülərin hücumlarından qorumaları və himayələrinə qəbul etmələri üçün buraya dəvət etmişlər. Və onlara bu himayə müqabilində sonralar vergiyə çevrilən ödənc ödəmişlər. Həmin ödənc zamanla "Keç gəl", "Keşkəl" adlandırılmışdır.) vasitəsilə nizamlanırdı. Muxax kəndinin türk əhalisi isə keşkəl ödəyicisi deyildilər. Bu isə belə düşünməyə imkan verir ki, avar-saxurların Muxax kəndinin ərazisinə miqrasiyasına qədər burada "muğal" adlandırılan türk əhali tərəfindən əsası qoyulan bir yaşayış məskəni var idi. Baş Muxağın sakinləri bura köçdükcə yerli sakinlər say etibarilə azlıqda qalmışlar. Burada məskunlaşan və çoxluq təşkil edən Baş muxax-



lılar isə gəldikləri yerin, yəni Muxağın adını yeni yaşadıqları yerə vermişlər. Muxagin muğal əhalisinin vəkillərinin Zaqatala Silki-Torpaq Komissiyasına yazdıqları Ərizə bu baxımdan olduqca maraqlıdır. 1870-ci il tarixli Ərizədə kəndin ərazisinin təxminən 300 il əvvəl onların babalarına Osmanlı sultanı Məhəmməd (1870-ci ildən təxminən 300 il əvvəl 1570 -90-ci illərə təsadüf edir. Həmin illərdə Azərbaycan, eləcə də bəhs etdiyimiz bölgə Osmanlı tərəfindən tu-



tulmuşdu və 1590-cı il sülhü ilə Səfəvi tərəfi də bunu tanımışdı. Ərizədə adı çəkilən Osmanlı padışahı Məhəmməd isə çox güman ki, 1595-1603-cü illərdə hakimiyyətdə olmuş III Mehmet idi və ya o, nəzərdə tutulurdu – M.A.) tərəfindən kənd salmaq məqsədilə verildiyi və kəndin onlar tərəfindən salındığı, avar əhalinin isə buraya sonradan köçdüyü qeyd edilmişdi[21].

Beləliklə, Muxax artıq XVIII yüzillikdən burada yaşayan üç etnosun, yəni türk, avar və saxurların bir siyasi-iqtisadi sistemdə birləşdiyi və vahid mədəniyyətin əsasını qoyduqları yaşayış məskəni kimi tanınmışdır.

## ƏHALİNİN MƏŞĞULİYYƏTİ

Muxax kəndi dağətəyi relyefdə yerləşir. Bu isə onun əhalisinin məşğuliyyətinə ciddi təsir göstərmişdir. Zaqatala Silki Torpaq Komissiyasının məlumatına görə, burada əhali həm əkinçiliklə (buğda, çəltik), həm də maldarlıqla, əsasən də qoyunçuluq təsərrüfatı ilə məşğul olmuşdur. Kəndin əkin yerləri 5 sahəyə bölünmüşdü. Əsas əkin yerləri miqrasiya nəticəsində buraya gələn əhali arasında, daha konkret desək, 4 toxum və ya nəsil - Curmut, Boçaxlı, Səbətli və Ərəbli arasında bölünürmüş. Bu bölgü sonralar kəndin inzibati bölgüsünə çevrilmişdir. 5-ci sahə isə kəndin türk əhalisinin idi. Onlar özləri ayrıca kəndin yaxınlığındakı meşə ərazisini təmizləyərək onu 5-ci sahəyə çevirmişdilər. Silki Torpaq Komissiyasının məlumatlarında həmin əkin sahələrinin Lödün çölündə yerləşdiyi qeyd edilir.

Əhalinin ikinci əsas məşğuliyyəti maldarlıq, xüsusilə qoyunçuluq idi. Zaqatala Silki Torpaq Komissiyasının məlumatına görə, 1870-ci ildə Muxax camaatına məxsus iribuynuzlu mal-qaranın sayı 2150, xırda buynuzlu mal-qaranın sayı isə 8070 baş olmuşdur[22].

Muxax əhalisinin məşğuliyyəti sırasında bağçılıq, xüsusilə fındıqçılıq, baramaçılıq, ipəkçilik, xalçaçılıq da var idi.

Beləliklə, kəndin əhalisi yaşamaq üçün lazım olan vasitələri, demək olar ki, özü istehsal edirdi.

## MUXAX XALÇALARI

### *a. Zaqatala xalçaları*

Zaqatalanın xalçaları Azərbaycanın etnomədəniyyətinin zənginliyinin təzahürüdür. Özünəməxsus naxışlara malik, təbii rəngli, burada yetişdirilən qoyun cinsinin yunundan toxunan xalçalar digər bölgələrdən daha qaba olması ilə fərqlənir.

Azərbaycan xalçaçılıq tarixinin bir sıra mühüm məqamları kimi, Zaqatala xalçaçılığı da uzun illər diqqət mərkəzindən kənarda qalmış, araşdırılmamışdır. Əslində, bu gün "Azər-İlmə"də İrəvan, Bakı, Naxçıvan, Qarabağ, Gəncə, Təbriz, Qazax-Borçalı, Quba, Şirvan kimi xalçaçılıq qrupları üzrə təsnif olunan və araşdırılan Azərbaycan xalçalarını kənd-kənd, qəsəbə-qəsəbə öyrənmək daha düzgündür. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, bəzən bir kənddə toxunan eyni çeşnili xalçalar da bir-birindən fərqlənir. Bu, ilk növbədə, xalçanı toxuyan qadının dünyagörüşündən, mənsub



olduğu ailənin soykökündən, adət-ənənələrindən, davranış tərzindən irəli gəlir. İllərlə yerli camaat arasında "Bis xalçası" adlandırılan "yeri-yurdu" qaranlıq qalmış Zaqatala xalçalarını dünyanın əntiq xalça həvəskarları öz kolleksiyalarında "Qazax" adı ilə saxlayırdılar. Bu yanlışlıq 1994-cü ilədək davam etmişdir.

***b. Muxax xalçaları və ya Azərbaycan xalçaçılıq tarixində yeni kəşf***

1994-cü ildə yenicə yaranmış və Azərbaycan xalçaçılıq tarixinə dair araşdırmalara start vermiş "Azər-İlmə" Zaqatalada toxunan xalçaların mənşəyinə dair axtarışlar aparan dünya şöhrətli mütəxəssisləri Azərbaycana dəvət edir. 1993-cü ildə ingiltərəli xalça mütəxəssisi, "Halı" jurnalının səyyar redaktoru Toni Hazledinen "Azər-İlmə"nin xalça-tədqiqatçıları ilə birlikdə Zaqatalaya - "Bis" xalçasının ən çox toxunduğu Muxax kəndinə yollanırlar. Mütəxəssislər burada toxunan xalçalar, Zaqatalanın tarixi abidələri ilə tanış olur, Muxax kəndində xeyli araşdırmalar aparır, yerli sakinlərlə söhbət edir və xalçaları öyrənmək üçün Nyu-Yorkun xalça ekspertləri ilə danışıqlar aparırlar. Bir müddət sonra ekspertlərin cavabı məlum olur: bu xalçada vurulan naxışlar Zaqatala ərazisində yaşamış qədim türk tayfalarına məxsusdur!



Ekspertlər, həmçinin bu xalçalarla Türkiyənin Konya şəhərində toxunan xalçaların toxunma texnologiyasının eyni olduğu qənaətinə gəlir.

Muxax xalçaları dördbucaq formalı, qalın xovlu, 7 (bəzən də 6) ana rəngin tətbiq olunduğu, arişləri adətən qara qoyun yunundan, keçi qəzilindən olan unikal sənət əsərləridir. Çobankol, Suagil, Danaçı, Çardaxlı, Tala, Car kimi ətraf kəndlərdə toxunan xalçalarla müqayisədə, Muxax xalçaları Azərbaycanın digər xalça qrupları ilə daha çox oxşarlıqlara malikdir. Məsələn, bu xalçanın naxışları seyrəkliyi və sərbəstliyi, kompozisiya sadəliyi, rəngləri ilə Qazax-Borçalı qrupu xalçalarını xatırladır.

Lakin heç bir xalça qrupunun Muxax xalçaları ilə yaxınlığı, bu xalça nümunələrinin Konyanın "Yatak" xalçaları ilə oxşarlığı ilə müqayisə edilə bilməz. Coğrafi baxımdan bir-birindən xeyli aralıda toxunan bu xalçaların rəng, çeşni, naxış, kompozisiya oxşarlığı heyrət doğurur. Araşdırmalar sübut edir ki, bu dərəcədə bənzərlik yalnız geneoloji yaxınlıqla bağlı ola bilər. Yalnız bir kökdən olan, bir nəsli, tayfanı təmsil edən xalçaçılar belə sənət əsərləri yarada bilərlər. Nəinki Muxax xalçaları, ümumiyyətlə, bütün Azərbaycan xalçaları bir tayfanın qollarını, təmsilçilərini tapmaq, bir araya gətirmək, oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək baxımından əvəzsiz mənbədir. Təsadüfü deyildir ki, hər xalça toxunduğu elin-obanın vəsiqəsi, müasir dillə desək, "sertifikatı"dır. Türk xalqlarının yayılma arealının, köçürülmə və yerləşdirilmə proseslərinin öyrənilməsi üçün xalçalar qədər əsaslı sübut tapmaq çətindir. Xalça türkün həm aranda, həm yaylaqda yol yoldaşı, evinin - alaçığının bəzəyi, dostuna-yoldaşına hədiyyəsi, gəlin köçən qızlarına cehizi... olub. Bu baxımdan da, Konya və Muxax xalçalarının oxşarlığı indi adı çəkilən bu torpaqlarda yaşayan və yaradan əhalinin əslində bir kökdən olduğunu əyani şəkildə nümayiş etdirir. Muxax xalçalarının rəngləri digər Azərbaycan xalça qrupuna daxil olan xalçaların rəngindən fərqlənir. Bu da vaxtilə Muxax xalçalarının xüsusi texnologiya ilə boyanması ilə əlaqədardır. Bu XVIII əsrin xalça boyaqları ilə eyniyyət ətşkil edir. Bu, ilk növbədə Muxax xalça nümunələrində tətbiq olunan qırmızı rəngin fərqliliyini şərtləndirir. Alimlər XVIII əsrin xalçaları üzərində olan qırmızı rəngi araşdırarkən, məhz Muxax xalçalarına istinad edirlər. Ümumiyyətlə, Azərbaycan boyaqçılıq tarixində "Muxax qırmızısı" anlayışının formalaşması da yerli xalçaçılıq ənənələri ilə əlaqədardır.

Muxax xalçalarının ilmə sıxlığı 28x35 olur. Digər xalça qruplarından fərqli olaraq Muxax xalçalarının toxunuşunda yalnız yundan istifadə edilir. Xalçanın kənar bükmələri rəngli saplarla toxunur, aşağı və yuxarı tərəflərdə sadə qırmızı yerlikli kilim toxunuşu tətbiq edilir. Bu toxunuşu saçaqlar tamamlayır. Bu xalçaların bədii tərtibatında çərxi-fələk, damğa, qarmaq, qoçbuynuz, gözqaytarıcı işarələr, həndəsi





elementlərdən, o cümlədən qədim Orxon-Yenisey abidələrinin yazılarını xatırladan naxışlardan istifadə olunur.

Beləliklə, Muxax xalçaları ilə bağlı araşdırmamıza yekun vurarkən qeyd etmək istərdik ki, ümumiyyətlə, Azərbaycan xalçaçılığı son illərə qədər çox az araşdırılıb. Xüsusilə, sovet hakimiyyəti illərində mədəniyyətin öyrənilməsinə həddən artıq geniş yer verildiyi halda Azərbaycan xalçaçılığına diqqət yetirilmirdi. Fikrimizcə, Sovet hakimiyyəti illərində Azərbaycan xalçaçılığının dar çərçivədə araşdırılmasının əsas səbəblərindən biri də elə bu amillə əlaqədardır. Xalçanın mahiyyətinə vardıqca, onun hər naxışını, elementini dərk etdikcə özünü, tarixini tapmış olursan. Ucu-bucağı görünməyən bu dünyada kiminlə yaxın, bağlı, kimdən nə qədər uzaq və yad olduğunun fərqinə varırsan. Xalqların bir-biri ilə bağlılığının (xüsusilə SSRİ sərhədlərindən kənarda) müəyyənləşməsi, əlaqələrin bərpası sovet hökumətinin daxili və xarici siyasətinə zidd idi. Qədim Azərbaycan xalçalarının əhalidən kütləvi şəkildə yığılması da məhz xalqı öz kökündən, soyundan uzaqlaşdırmaq siyasəti ilə əlaqədar idi. Muxax xalçaları bu siyasətə meydan oxumuş, varlığını, keçmişimizi öz ilmələrində əbədiləşdirən, dünənimizi bu günümüzə bağlayan sənət nümunələridir.

1. Ашурбейли С. Государство Ширваншахов,Баку, Элм,1993, с.62
2. Ашурбейли С. Государство Ширваншахов.,с.62-63
3. Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, "Şərq-Qərb nəşriyyat evi",2011, s.87-89
4. Arzu Əşrəf qızı. Car-Balakən camaatlığı(XVII əsrin sonu-XIX əsrin 30-cu illəri),Bakı, UniPrint, 2009, s.31-35
5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, Bakı, Azərbaycan Dövləti Nəşriyyatı, 1993, s.53-55, 83
6. Байрамлы З Азярбайъан Сяфяви дювлятинин гурулушу вя идаря системи, Бакы: АДПУ мябяяси, 2006, s.101
7. GMDTA, f.236,siy.2,iş 88
8 GMDTA, f.2, siy.2, iş 1414; f.236, siy.2, iş 88
9. İsgəndər bəy Münşi, Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi), I cild,Bakı,Təhsil,2009, s.722
10. Xatırladaq ki, bu köçə qədər Qoloda yaşayış məskəni kimi mövcud idi.
11. Посербский А, Очерк Закатальского Округа. // Кавказский календарь на 1866 г.. Тифлис, 1865,с.19-20
12. Bölgənin Türk əhalisi Mugal adlandırılırdı.
13. Посербский А, Очерк ..., s.37, Məmmədova A. Car-Balakən camaatlığı XVII əsrn sonları – XIX əsrin30-cu illərində (tarixi demoqrafik tədqiqat). Avtoreferat, Bakı, 2010,s.17
14. Вахушти Багратиони. История царства Грузинского/Пер., пред. Н.Накашидзе, Тбилиси 1976. С.163; Айтберов Т. Закавказские аварцы:иэтнос, государственность. Законы (VIII – начало XVIII вв.), ч.1, Махачкала, 2000,с.125-126
15. Məmmədova A. Car-Balakən camaatlığı XVII əsrn sonları – XIX əsrin30-cu illərində (tarixi demoqrafik tədqiqat). Avtoreferat, ,s.17-18
16. Arzu Əşrəf qızı,Car-Balakən camaatlığı..., s.61
17. GMDTA, f.236, siy.2,iş 13, v.17
18. Qeyd edək ki, Rusiya imperiyası dövründə burada yaşayan avarlar, saxurlar fərq qoyulmadan Ləzgi adlandırılırdılar.
19. Bölgənin Türk əhalisi isə Muğal adlandırılırdı.
20. GMDTA. F.236, siy.2, iş.13, v. 17 (a)-27 (a)
21. GMDTA,f.236,siy.2,iş 13,v.17-21 (a)
22. GMDTA, f.236,siy.2,iş 19 (a)

*Prof.* ***Vidadi Muradov.***
*PhD in History* ***Arzu Mammadova***

**"Mukhakh carpets.**
**From past to present"**

***Key words:*** *Zakatala, Mukhakh, Konya, "Halı", "Azer-Ilme", Jar-Tala Union, "Bis" carpet, "Yatak" carpet.*

**Summary**

Mukhakh village, located in the territory of Zagatala district of the Republic of Azerbaijan, holds a unique position in the political and cultural history of the north-western region. The ethnic diversity of the village population, consisting of Turks, Avars and Sakhurs, has greatly affected the formation of its specific culture. In Mukhakh a special type of carpet, called "Bis" by elders, is woven. Mukhakh carpets are rectangular shaped with thick pile with seven (sometimes six) major colors; they are unique art pieces, the warps of which are made out of black sheep wool or goat's wool.

*профессор* ***Видади Мурадов,***
*доктор философии по истории* ***Арзу Мамедова***

**«Ковры Мухаха.**
**Из прошлого в настоящее»**

***Ключевые слова:*** *Закатала, Мухах, Конья, "Halı", "Азер-Ильме", Союз Джар-Тала, ковер "Бис", ковер "Ятак".*

**Резюме**

Селу Мухах, расположенному на территории Загатальского района Азербайджанской Республики, принадлежит особое место в политической и культурной истории северо-западного региона. Этническое многообразие населения села, состоящего из жителей самых разных национальностей (турков, аварцев, сахуров), оказало серьёзное влияние и на формирование его культуры, имеющей специфический колорит. Мухах – это место, где старожилы создают особый вид коврового изделия, называемого «Бис». Ковры «Мухах» – это уникальные произведения искусства.